2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Qabil Orucovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 10 oktyabr 2015-ci il tarixli 82 saylı və digər müraciətlər üzrə

# RƏYİ

Bakı şəhəri 11 oktyabr 2015-ci il

Mən, ekspert qrupunun üzvü Qabil Orucov 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 61 saylı Neftçala seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əsədov Kamran Alim oğlunun və həmin dairə üzrə qeydə alınmış namizəd Səlimov Ağagül Saleh oğlunun 10 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətini araşdıraraq aşağıdakıları müəyyən etdim:

Müraciətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, bir icraatda birləşdirilmişdir.

Namizəd K.A.Əsədov müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 61 saylı Neftçala seçki dairəsi üzrə öz təşəbbüsü ilə namizədliyi irəli sürülmüş, həmin dairənin ərazisində seçicilərin imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, lakin nəticədə dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Qeydə alınmış namizəd A.S.Səlimovla, həmçinin namizəd K.A.Əsədovla əlaqə saxlanılmış, onlara əlavə sənədlər və materiallar təqdim etmək, araşdırmada və iclasda iştirak etmək hüququnun olması izah edilmiş, A.S.Səlimov ərizəsini müdafiə etdiyini və üzürlü səbəbdən iclasda iştirak edə bilməyəcəyini bildirmişdir.

Öz təşəbbüsü ilə namizədliyi irəli sürülmüş K.A.Əsədovun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının 22 sentyabr 2015-ci il tarixli 10/28 saylı qərarında imtinanın əsası kimi Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin müvafiq bəndlərinə istinad edilmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan sənədlərin yoxlanılması nəticəsində tərtib edilmiş 10 oktyabr 2015-ci il tarixli protokol və rəylərdən görünür ki, K.A.Əsədovun namizəd kimi qeydə alınması üçün təqdim etdiyi 11 imza vərəqəsində olan 550 seçici imzasından 419-u etibarlı hesab edilmişdir. Etibarlı hesab edilən imzaların sayı namizədin qeydə alınması üçün kifayət etmədiyindən onun namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının mübahisələndirilən qərarı əsaslı sayılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 60.2.4-cü maddəsinin tələbinə görə namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımı saydan az olması namizədin qeydə alınmasından imtina üçün əsasdır.

Göstərilənlərə əsasən namizəd K.A.Əsədovun müraciəti əsassız olduğundan təmin edilməməli, namizədliyin qeydə alınmasından imtinaya dair 61 saylı Neftçala seçki dairəsi dairə seçki komissiyasının 22 sentyabr 2015-ci il tarixli 10/28 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalı, deputatlığa qeydə alınmış namizəd A.S.Səlimovun müraciəti isə təmin edilmiş hesab edilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 56-cı, 57-ci, 59.12-ci, 60-cı, 112-ci, 112-1-ci, 147-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **r ə y ə g ə l d i m:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 61 saylı Neftçala seçki dairəsi üzrə deputatlığa qeydə alınmış namizəd Səlimov Ağagül Saleh oğlunun müraciəti təmin edilsin.

2. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 61 saylı Neftçala seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əsədov Kamran Alim oğlunun onun namizədliyinin qeydə alınmasından imtinaya dair dairə seçki komissiyanın qərarından verdiyi şikayəti əsassız olduğundan təmin edilməsin və dairə seçki komissiyasının 22 sentyabr 2015-ci il tarixli 10/28 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılsın.

2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxsə göndərilsin.

Ekspert qrupunun üzvü Qabil Orucov